# Həyatın, cəmiyyətin inkişafı məktəbdən başlanır

Vaxtilə ölkənin ən iri və varlı rayonu hesab olunan Ağdam işğala məruz qalsa da, ötən illər ərzində özünə xas olan ənənələri qoruyub saxlamış, öz keçmiş şöhrətinə doğru yenidən cəsarətlə, qətiyyətlə addım-addım yaxınlaşır. Ermənistan tərəfindən təcavüzə, işğala məruz qalan böyük bir el dövlətimizin qayğısı sayəsində yenidən ayaq üstə qalxır, yeni bir Ağdam qurmaq üçün daxili imkanlar və bütün qüvvələr bu xeyirxah işə səfərbər olunub. Tikinti-quruculuq işləri davamlı xarakter alıb. Sözün əsl mənasında, gözlərimiz qarşısında kənd şəhərə çevrilir. Ağdam həm də ziyalılar yurdu kimi tanınıb, musiqi beşiyi olub, adlı-sanlı əmək qəhrəmanları ilə şöhrət tapıb. Hələ ötən əsrin 70-80-ci illərində Ağdam şəhərindəki məktəblər həmin təhsil müəssisələrinə rəhbərlik edən direktorların adı ilə tanınıb. Süleyman müəllimin, Surxay müəllimin, Knyaz müəllimin, Əli müəllimin məktəbləri. Sevindirici haldır ki, yeni nəsil bu ənənəni yaşadır və inkişaf etdirir.

Rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədovun təbirincə desək, keçmiş şöhrəti bərpa etmək nə qədər çətin olsa da, ziyalılığı geniş yaymaq üçün yaxşı imkanlar mövcuddur, eyni zamanda bu həm də birbaşa məktəblərin üzərinə düşən əsas vəzifələrdən biridir. Tək bir fakta diqqət yetirək. Son 20 il ərzində ilk dəfə rayonda təhsildə ən yüksək göstəriciyə nail olunub. 357 nəfər məzun müxtəlif ali məktəblərə qəbul olunub.

Cəbhə bölgəsində yerləşən kəndlərdə və qoşunların təmas xəttinə yaxın ərazilərdəki məktəblərin hamısında düşmən tərəfindən atılan güllələrin səsi aydın eşidilir. Mübaliğəsiz demək olar ki, barıt qoxulu ötən dərs ili uğurlu və yüksək göstəricilərlə başa çatıb. Düşmənlə üz-üzə olan təhsil ocaqlarının bir çoxu əsaslı və cari təmir olunmuş, yeni məktəblər də inşa olunaraq istifadəyə verilmişdir. Rayonun təhsil işçiləri ötən dərs ilində, vətəndaşlıq borcunu, müəllim adını vicdanla yerinə yetiriblər. Təcrübəli pedaqoq, dəyərli ziyalı, rayon təhsil şöbəsinin müdir əvəzi Rahil Allahverdiyev həmkarları ilə birlikdə əl-ələ verərək gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi, savadlı, bilikli olmasına, necə deyərlər, ürəklərinin odunu, atəşini sərf ediblər.

Təhsil Nazirliyində başlanmış geniş islahatlar layiqli və fədakar nəslin yetişməsinə, inkişaf və tərəqqinin məktəbdən başlandığını, cəmiyyətin sağlamlığının təhsillə sıx bağlı olduğunu ön plana çəkib. 2015-2016-cı dərs ilini əldə olunan nailiyyətlər üzərində daha da irəliyə aparmaq üçün rayon təhsil şöbəsində kifayət qədər təcrübəli, peşəkar, təşəbbüskar və tərəqqipərvər müəllim var.

Rayon təhsil şöbəsinin müdir əvəzi Rahil Allaverdiyev söhbət zamanı əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən ətraflı bəhs edərək deyir:

—2014-cü ilin avqust ayında ölkə Prezidenti cənab İlham Əliyevin rayonumuza səfəri zamanı İmamqulubəyli köçkünlər qəsəbəsinin açılışında iştirak etməsi, ictimaiyyət nümayəndələri ilə səmimi görüşləri, rayonda görülən işlərə müsbət qiymət verməsi, biz təhsil işçilərini daha səylə işləməyə ruhlandırıb. 2014-2015-ci dərs ilində rayonda 135 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar tərbiyə müəssisəsi, 33 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərib. Rayon ümumtəhsil məktəblərində 19023 nəfər şagird təhsilə cəlb edilmişdir ki, bunların da təlim-tərbiyəsi ilə 3793 nəfər müəllim məşğul olub.

Təlim-tərbiyə ilə bağlı qarşıda duran vəzifələrin müsbət həlli tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsindən, onların müasir avadanlıqlarla, ixtisaslı kadrla təmin olunmasından çox asılıdır. Bununla əlaqədar təhsil müəssisələrinin madditexniki bazasının möhkəmləndirilməsi daima diqqət mərkəzində saxlanılmış, tədris ili ərzində 160 yerlik I Baharlı kənd, 120 yerlik Həsənxanlı kənd, 120 yerlik Hacıməmmədli kənd, 360 yerlik Əfətli kənd tam orta məktəbləri üçün yeni məktəb binaları tikilmiş, İmamqulubəyli qəsəbəsində 440 yerlik, Yevlax-Bərdə yolunda salınmış qəsəbədə 480 yerlik məktəb binası şagirdlərin istifadəsinə verilib.

Bundan başqa, 440 yerlik Əhmədağalı, Xındırıstan kənd tam orta məktəbi əsaslı təmir olunmuş və bu məktəblərin hamısı yeni avadanlıqlar, kompüter sinifləri ilə təmin edilib. Yeni istifadəyə verilən məktəblərin hamısı fərdi istilik sistemi ilə təmin edilib və ötən illərdə istilik təminatı ilə əlaqədar mövcud olan problemlər aradan qaldırılıb.

Məktəblərin yeni dərs ilinə hazırlanmasında və tədrisin keyfiyyətinin yüksəlməsində şagirdlərin dərsliklərlə təmin olunması əsas vəzifələrdən biridir. Hər tədris ili olduğu kimi, yeni dərs ili üçün də Təhsil Nazirliyindən qrafik əsasında IV siniflər üçün 11 adda 15986 ədəd, VI siniflər üçün 16 adda 11408 ədəd dərsliklər və 1469 ədəd vəsaitlər vaxtında gətirilərək bölgü əsasında məktəb kitabxanalarına verilib. Məktəb rəhbərlərinin, müəllimlərin, kitabxana işçilərinin dərsliklərin şagirdlərə düzgün çatdırılması və qorunub saxlanmasına, onlardan sonrakı illərdə də səmərəli istifadə olunmasına diqqəti və məsuliyyəti artırılıb.

Dövlət Qaçqınkom tərəfindən I sinif şagirdləri üçün məktəbli forması, Heydər Əliyev fondu tərəfindən I sinif şagirdləri üçün göndərilən məktəbli çantaları da bölgü əsasında məktəblərə paylanıb. Cari dərs ilində 250 ədəd məktəbli partası, 12 ədəd müəllim stolu, 20 ədəd kitab şkafı alınıb bölgü əsasında zəruri ehtiyacı olan məktəblərə çatdırılıb.

Möhtərəm Prezidentimiz İlham Əliyevin "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensiyalının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın təsdiq edilməsi haqqındakı sərəncamı ilə əlaqədar görülən işlər daha da gücləndirilmiş, istedadlı şagirdlərin aşkara çıxarılması və onlarla səmərəli iş sisteminin yaradılması diqqət mərkəzində saxlanmışdır. Bununla əlaqədar şagirdlər arasında bilik yarışları, fənn olimpiadaları, test yoxlamaları, inşa yazı müsabiqələri keçirilmişdir. Belə inşa yazı müsabiqələrindən biri ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı olmuşdur. Rayonun bütün ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdi arasında "Heydər Əliyev və çiçəklənən Azərbaycan" mövzusunda inşa yazı müsabiqəsində 350-dən çox şagird iştirak etmişdir. Təhsil şöbəsində yaradılmış işçi qrupu 5 saylı köçkün tam orta məktəbin XI sinif şagirdi Məhərrəmova Pünar Hüseynqulu qızının yazı işi I dərəcəli diplomla təltif edilib.

Torpaqlarımızın 20%-nin işğal altında olduğu bir zamanda rayon ümumtəhsil məktəblərində şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində ardıcıl iş aparılır. Bununla bağlı bütün təhsil müəssisələrində müxtəlif səpkidə tədbirlər - kitab müzakirəsi, milli qəhrəmanlarımız haqqında söhbətlər keçirilmiş, hər bir məktəbdə "Qarabağın qan yaddaşı" kitabı hazırlanmışdır. Hər bir təhsil müəssisəsində Ağdamın "Milli Qəhrəmanları" haqqında stendlər düzəldilmişdir.

Müasir cəmiyyətdə təhsilin vacib komponentlərindən birinə çevrilmiş İKT-nin təhsil müəssisələrində tətbiqi ilə bağlı xeyli işlər görülmüşdür. Təhsil Nazirliyinin "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində 476 ədəd kompüter dəsti quraşdırılmış, bütün məktəblər üzrə inzibati idarəetmə aparatı işçiləri təlim kurslarından keçirilmişdir. Hazırda Təhsil Şöbəsində, əlavə 19 məktəbdə birbaşa sürətli internetə qoşulma üçün müvafiq iş aparılır.

İldən-ilə məktəblərimizdə kompüter siniflərinin sayı artır, İKT avadanlıqlarından istifadə daha da genişlənməkdədir. Şagirdlərə ayrı-ayrı fənlər üzrə mövzuların mənimsənilməsində müasir texnoloji vasitələrdən istifadə edilir.

Eyni zamanda rayon ümumtəhsil məktəblərində "Cəsurlar" və "Şahin" hərbi idman oyunlarının həm məktəb,



həm də rayon turu keçirilmiş, qalib komandanın zona mərhələsində iştirakı təmin edilmişdir. Şagirdlərlə bu istiqamətdə aparılan müsbət işin nəticəsidir ki, builki tədris ilinin məzunlarından 4 nəfəri C.Naxçıvaniski adına hərbi liseyə qəbul olunub. Rayon təhsil şöbəsində yaradılmış işçi qrupunun hazırladığı cədvələ əsasən ilk yüksək nəticə göstərən təhsil müəssisələri, o cümlədən, 28, 33, 35, 36, 47 saylı köçkün, Paşabəyli, Qaradağlı, üçoğlan kənd tam orta məktəbləri olub.

2014/2015-ci dərs ilində rayon ümumtəhsil məktəbləri üzrə attestat alanların sayı 1346 nəfər olmuşdur. Bunlardan 643 nəfəri TQDK-ya ali məktəblərə qəbul üçün sənəd vermiş, 372 nəfər məzunumuz respublikanın reytinqi yüksək olan Universitetlərinə qəbul olmuşdur. Ali məktəblərə qəbulun vəziyyəti RTŞ-də yaradılmış işçi qrupu tərəfindən dəqiq araşdırılmış, reytinq cədvəli hazırlanmışdır. Rayon üzrə ən yüksək nəticə Qasımbəyli qəsəbə tam orta məktəbində (86%) olmuşdur.

Builki məzunlardan 23 nəfər 600 baldan, 49 nəfər isə 500-dən çox bal toplamışdır. Ən yüksək nəticəni rayonun 2 saylı köçkün tam orta məktəbin məzunu Məhərrəm Təhməzov 681 bal toplayaraq rayonun və oxuduğu məktəbin şərəfini qoruyaraq ADA-nın biznesin təşkili fakültəsinə qəbul olmuşdur. Bununla bərabər daha 4 nəfər məzunumuz 650-dən çox bal toplamışdır ki, bunlar da 33 saylı köçkün tam orta məktəbin məzunu Səbinə Məmmədzadə 669 balla BDU-nun hüquq fakültəsinə, Qaradağlı kənd tam orta məktəbindən Anar Qarayev 669 balla ADA biznesin idarə edilməsi fakültəsinə, Quzanlı kənd tam orta məktəbin məzunu Yaqut Orucova 650 balla "Qafqaz" Universitetinə qəbul olublar.

Təbii ki, əldə olunan uğurlarla yanaşı, nöqsanlar da mövcuddur. Uzun illər boyu buraxılmış həmin səhvlər indi aradan qaldırılır, təcrübəli pedaqoqların köməyi ilə yeni Təhsil Strategiyasından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün geniş Tədbirlər Planı hazırlanıb. Məlum olduğu kimi, yeni Təhsil Strategiyası beş istiqamət üzrə ölkəmizə və doğma vətənimizə layiq vətəndaşlar yetişdirmək üçün məktəbin və müəllimlərin qarşısına məsul vəzifələr qoyub.

**Salman ALIOĞLU.**